# Qacar dövlətinin süqutu və Palanilər



Elşən Mirişli
*Gəncə şəhəri, tarixçi*

## IV Yazı

***İran Palani ordusunun qarşısında Güney Azərbaycan milli istiqlalçılarından bəzi hərbi hissələr əmri yerinə yetirməyərək inadla müqavimət göstərdilər.Şahsevən qızı Səriyyə 18 nəfərlik bir fədai dəstəsi ilə 5 gün qəhrəmanlıqla savaşdı.O ölərkən demişdi : "Azadlıq ağacları şəhidlərin qanı ilə suvarıldıqca daha çox bar verəcəkdir".***

***Milli-azadlıq hərəkatının nailiyyətlərinin üstündən bir an içində xətt çəkildi.Mərkəzi hökumət Azərbaycanı "bir məğlub ölkə", Azərbaycan türklərini isə "məğlub bir millət" mövqeyindən çıxış edərək Milli hökumətlə bağlanmış müqavilələrin ləğv olunduğunu,Əyalət əncüməni və ostandarlığın fəaliyyətinin dayandırıldığını bəyan etdi. İrimiqyaslı,çox qəddarlıqla da həyata keçirilən repressiya tədbirləri göründü.Məhəmməd Rza Palani "İrticai-Azərbaycana" son qoyulmalıdır deyərək siyasi təqibləri gücləndirdi. Milli Universitet,teatr,radio,flarmoniya,kitabxana və sairələr bağlandı.Səttarxanın və Bağırxanın heykəlləri dağıdıldı,onların yerində "qalib" şahın şəkli vuruldu.***

## Əmənulla Mirzə Qacar (1890-1974)

Qacar şahzadəsi,briqada generalı idi.Əmənulla Mirzə 1890-cı ildə anadan olmuşdu.1907-ci ildə Mixailovsk Hərbi Akademiyasına daxil olmuşdu.Oranı bitirəndən sonra Paris de Guerre Məktəbinə girmişdi.1921-ci ildən 1922-ci llədək İran kazak diviziyasında hərbi xidmət keçmişdi.1922-ci ildən Azərbaycan əyalətində general-mayor rütbəsində korpus komandanı olmuşdu.1922-ci ildən 1926-cı ilədək Məşhəddə briqadaya başçılıq etmişdi.1926-cı ildən 1930-cu ilədək general-leytenant rütbəsində orduda idi.1932-ci ildən 1933-cü ilədək orduda general-müfəttiş vəzifəsi tuturdu.1933-cü ildən 1934-cü ilədək Hərbi Məktəbin rəisi idi.

Əmənulla Mirzə 1934-cü ildən 1935-ci ilədək Bəlucistanda hərbi xidmətdə olmuşdu.Rza şah Palaninin əleyhinə çıxdığına və mazan şahını qeyri-qanuni hesab etdiyinə görə 1937-1941-ci illərdə zindanda yatmışdı.1941-ci ildə Xarici İşlər naziri,1941-ci ildən 1942-ci ilədək Rabitə və Yollar naziri,1942-ci ildə Müdafiə naziri olmuşdu.1942-ci ildən 1943-cü ilədək Məhəmməd Rza şah Palaninin hərbi müşaviri vəzifəsində çalışmışdı.1943-cü ildə Şərq Silahlı Qüvvələrinin müfəttişi,1943-cü ildən 1944-cü ilədək Cənub Silahlı Qüvvələrinin müfəttişi idi.1947-ci ildə Xorasan və Kerman qoşunlarının general-müfəttişi vəzifəsini tuturdu.Elə həmin ildə Azərbaycan valisi olmuşdu.Palanilər (Pəhləvilər) sülaləsinə xidmət edən Qacar sülaləsindən olan şahzadə idi.Məhəmməd Müsəddiqin baş nazirliyi dövründə Palanilər tərəfindən zorla təqaüdə göndərilmişdi.Bununla Qacar dövlətinin bərbası ehtimalına qarşı öz tədbirlərini görmüşdülər.Əslində Əmənulla Mirzə Qacar 1947-ci ildən heç bir hərbi vəzifə daşımırdı.1951-ci ildən 1960-cı ilədək parlamentdə senator vəzifəsini yerinə yetirmişdi.

## Son Qacar dirənişi Məhəmməd Müsəddiq

Məhəmməd Müsəddiq 16 iyun 1882-ci ildə Tehran şəhərində anadan olmuşdur.Atası Mirzə Hidayətulla xan Aştiyani,anası Şahzadə Malikə Tac Xanım Qacar (1858-1933) idi.Şahzadə Malikə Tac Xanım Qacar Müzəffərəddin Şah Qacarın (25 mart 1853-7 yanvar 1907) kiçik bacısı olmuşdur.

Məhəmməd Müsəddiq ali təhsilini hüquq ixtisası üzrə almış,daha sonra İsveçrədə Lozanna Universitetini bitirərək hüquq üzrə doktorluq dərəcəsi almışdır.

Məhəmməd Müsəddiq Müzəffərəddin Şah Qacarın böyük qızı Zəhra Xanım Qacarla (1879-1965) evlənmiş və onların bu evlilikdən 5 övladı olmuşdur; oğulları-Əhməd,Qulam Hüseyn və qızları-Mənsurə,Ziya Əşrəf və Xədicə xanımdı.

***Rza xanın hakimiyyətindən əvvəl Qacar dövləti dövründə ölkədəki neftin çıxarılmasına İngiltərəyə böyük imtiyaz verdilər.1909-cu ildə yaradılan ingilis şirkəti "Anqlo Persian Oil Company" nefti işlətməyə başladı.Şirkət qurulduğu gündən Qacar dövləti böyük qazanclar əldə etdi.Ancaq neft gəlirinin çox böyük bir qismi şaha çatırdı.Bu gəlir isə xalqa verilmirdi və xalq bu neftdən faydalanmırdı.Məhəmməd Müsəddiq siyasi fəaliyyətinə 1914-cü ildə Fars əyalətinin valisi seçilməsi ilə başlamışdı.Rza xanın 1921-ci ildə etdiyi çevrilişdən sonra yeni yaranan hökumətdə əvvəl maliyyə naziri və daha sonra isə xarici işlər naziri vəzifələrini yerinə yetirmişdir.1923-cü ildə Milli Məşvərət Məclisinin üzvü olmuşdur.1922-ci ildə Azərbaycan valisi təyin edilən Müsəddiq sonralar Rza xanın özünü Şah elan etməsinə qarşı çıxdığı üçün bütün vəzifələrindən kənarlaşdırılmışdır.***

1941-ci ildə Rza xan oğlu Məhəmməd Rza Pəhləvi lehinə taxtdan çəkilmək məcbuiyyətində qalır.Bu hadisədən sonra Məhəmməd Müsəddiq siyasi arenaya qayıdır və yenidən ikinci dəfə məclisə seçilir (1944).

İngiltərə,İranın təkcə iqtisadiyyatında deyil həmçinin siyasətində də təsirliydi. 1941-ci ildə Rza şah Pəhləviyə də hakimiyyətdən çəkilib yerinə oğlu Məhəmməd Rza Pəhləvini (Palanini) də gətirən elə məhz Böyük Britaniyanın özü idi.İngiltərə İran üzərindəki bu siyasəti və iqtisadi hegomonluğu 1950-ci illərdə önəmli sarsıntılar keçirdi. Bunda birinci dərəcəli rol oynayan isə Məhəmməd Müsəddiq idi.

Müsəddiq Sovet İttifaqının İranın şimalında neft çıxartmaq və axtarış hüququnun tanınmasıma qarşı uğurlu bir müxalifət aparırdı.Daha sonra ingilislərə məxsus "Anqlo-İranian Oil Company Ltd"-ni İrandakı müəssisələrini milliləşdirilməyə dəvət edərək,ölkədə böyük nüfuz qazanmışdı.1949-cu ildə Məhəmməd Müsəddiq Milli Cəbhə adlanan siyasi təşkilat yaradır.1951-ci ildə İran Milli Məclisində neft sənayesinin milliləşdirilməsi qərarının qəbulunda iştirak edir.Həmin il İranın baş naziri vəzifəsinə təyin olunur və neft sənayesinin milliləşdirilməsi istiqamətində fəaliyyətə başlayır.Bu zəmində onun neft İngiltərə-İran şirkəti ilə qarşıdurması baş verir.Böyük Britaniya ilə ABŞ-ın maraqlarının ziddiyyətlərindən istifadə etməyə çalışan Müsəddiqin siyasəti özünü doğrultmur.İngilis və ABŞ xüsusi xidmətlərinin səyi ilə hakimiyyətdən 1953-cü ildə uzaqlaşdırılır və bir daha siyasətə qayıtmır.Bundan sonra İran xaricilərlə bağladığı bütün sazişləri təsdiq edir.

## Məhəmməd Müsəddiq baş nazirliyi dövrü

### 30 aprel 1951-17 iyul 1952
### 22iyul 1952-19 avqust 1953

İngilislərin neft imtiyazları Qacar dövləti dövründə və ondan sonrakı İran dövründə payın az olduğu illərdə bu gündəm maddəsi idi.İmtiyazların yenidən ələ alınması üçün 1948-ci ildən ingiltərə ilə görüşmələrə başlandı.Bu vaxt 1949-cu ildə ümumi seçkilər keçirildi.Parlamentə seçkilərdə Məhəmməd Müsəddiqin olduğu Milli Cəbhə uğur qazandı.İngiltərə ilə görüşlərdən nəticə çıxmadığından,Məclis Neft komissiyası 25 noyabr 1950-ci ildə görüşmələrdən çəkildi.Bu hadisədən sonra Milli Cəbhə lideri Məhəmməd Müsəddiq 19 fevral 1951-ci ildə Neft Məclis komissiyasının bəzi millət vəkilləri ilə İran neftinin milliləşdirilməsi üçün məsləhətləşdi.İran neftini milliləşdirən qərar 20 mart 1951-ci ildə Məclisdə qəbul edildi.Beləliklə,İngiltərənin İran nefti üzərindəki imtiyazları ləğv olundu.Milliləşdirmə qərarı Müsəddiqin zəfəri idi.Xalq tərəfindən çox sevilən,rüşvət yeməyən ana tərəfdən Qacar sülaləsinə mənsub olan şahzadənin nüfuzu görünməmiş dərəcədə artdı.

Neftin milliləşdirilməsi Müsəddiq ilə Böyük Britaniyanı qarşı-qarşıya gətirdi.İran nefti onlar üçün həyati önəm daşıyırdı.İranda neft sahələrini itirmək istəməyən İngiltərə bu məsələni Lahey Ədalət Divanına qədər daşıdı.Eyni zamanda İrana bir heyət göndərərək milliləşdirmə qərarını tanıyacaqlarını ancaq bunun 100-də 50-50 hissəsi və "Anqlo-İranian Oil Company" damı altında olmasını təklif etdi.Ancaq bu təklif Müsəddiq tərəfindən rədd edildi.Buna görə də İngiltərə Müsəddiq hökumətini iqtisadi baxımdan çətin vəziyyətdə qoymaq üçün beynəlxalq embarqo çağırışı etdi.İngilis imperatorluq donanmasına aid gəmilər Bəsrə körfəzinə keçdi.İngilislərin bütün cəhdlərinə baxmayaraq 1952-ci ildə Laheydəki Beynəlxalq Ədalət Məhkəməsi neft davasında verdiyi vəzifəsizlik qərarı Müsəddiqin qalibiyyəti mənasına gəlirdi.Bu qərardan sonra iki ölkə münasibətləri çıxılmaz nöqtəyə gəldi və 1952-ci il noyabrda Müsəddiqin İngiltərə səfirliyi ilə əlaqələri tamamən qopdu.Müsəddiq bir tərəfdən nefti milliləşdirərkən digər tərəfdən də ölkənin iqtisadi problemlərini həll etmək üçün cəhd edirdi.Bu məqsədlə böyük torpaq sahiblərinin əlindəki torpaqların bir qismini torpaqsız kəndlilərə paylamaq istəyirdi.Ancaq Müsəddiqin bu cəhdləri onu böyük torpaq sahibləri ilə qarşı-qarşıya gətirdi.Nefti milliləşdirilməsi vaxtı Müsəddiqi dəstəkləyən hakimiyyətə can atan irticaçı din adamları mollalar ilə əlaqələr pozulurdu.Müsəddiqə düşmən olan general Fəzlullah Zahidi ilə hərbi gücü əlində cəmləyən Raşidiyan qardaşlarının birlikdə hərəkət etməsi Müsəddiq üçün çətin bir dönəmi başladırdı.

## Ajax əməliyyatı

Bu vaxt İngiltərə itirdiklərini geri almaq üçün hərbi çevriliş planlamağa başladı.ABŞ ilə Müsəddiqi devirmək planlarını qururdu.1953-cü ilin martında TP-Ajax,"Operasyon Ajax" deyilən bir plan CIA və Böyük Britaniya kəşfiyyat servisi M16 tərəfindən hazırlandı.Planın məqsədi Müsəddiqi xalqı ayağa qaldırmaqla vəzifədən əl çəkməyə məcbur etmək idi.Amerika və ingilis kəşfiyyatı Müsəddiq hökuməti ilə düşmən olan qruplarla yaxınlaşmağa başladı.Milyonlarla dollar və pound sterling rüşvətin dağıdıldığı bu işlərdən sonra bu qruplar idarəetmədən razı olmayan xalqı ayağa qaldırdı və ölkədə asayişi pozdu.Bu qarşıdurmalarda yüzlərlə insan həyatını itirdi.

***Şah Məhəmməd Rza Palani isə Müsəddiqi vəzifədən uzaqlaşdırmaq istəyirdi.Onun yerinə general Fəzlullah Zahidi gətirdi.Bu səbəbdən də Müsəddiqin tərəfdarları da küçələrə axışdı və şah əvvəlcə İraqa, sonra da Romaya qaçdı.Müsəddiqi devirmək üçün edilən bu həmlə uğursuz oldu.Ölkədə hakimiyyət tam olaraq Məhəmməd Müsəddiqin əlinə keçdi.Lakin bir neçə ay sonra generallar ölkədəki qarışıqlığa son vermək iddiası ilə hərbi çevriliş edərək Müsəddiq,nazir və tərəfdarlarını həbs etdilər.Bu çevriliş cəhdində CIA və M16 istədiyi nəticəni əldə etdi.Qacar dövlətinin bərpasına imkan vermədilər.Şah Məhəmməd Rza hərbi çevrilişdən üç gün sonra İrana qayıtdı.Palani mazan xanədanı yenidən bərba olundu.Böyük Britaniya və ABŞ demokratik seçkilərlə iqtidara gələn və xalqın istəyi ilə nefti milliləşdirən,həyata keçirməyə çalışdığı islahatlarla dövləti yenidən qurmağa çalışan ana tərəfdən Qacar sülaləsinə mənsub Müsəddiq hökumətini devirdilər.***

Çevrilişdən sonra Müsəddiq vətənə xəyanət maddəsi ilə 3 il müddətinə həbs edilir və həyatının son illərini ev dustaqlığında keçirir.5 mart 1967-ci ildə 84 yaşında ev dustağı olaraq vəfat edir.Beləliklə son Qacar dirənişi bu sonluqla bitir.SSRİ,ABŞ,Böyük Britaniya Qacarlara son şansı belə tanımırlar.İran dövlətinin yaradıcısı və Qacar dövlətini devirən ingilis generalı Edmund Uilyam Ayronsayddı.Palani mazan sülaləsi və İran dövləti bu generalın təxəyülünün nəticəsində yaranmışdı.Ayronsayd hesab edirdi ki, perslərin dövləti yoxdu bu dövlət mütləq qurulmalıdı.Tarix gerçək araşdırılsa Sasani və Əhəmənilər dövlətlərinin də uydurma bir tarix olduğu saxta tarix yazarlarının yazılarından başqa heç nə olmadığı üzə çıxar.Bu saxta tarixin yazarları isə dünyanı idarə edən böyük dövlətlərdi.Eynən bu yalan tarix ermənilər üçün də yazılıb.

## Fəzlullah Zahidi

***Fəzlullah Zahidi İran kazak diviziyasının generalı idi.1897-ci ildə Həmədan şəhərində doğulmuşdu.Naib(leytenant) rütbəsindən sərtibi-əvvəl (general-mayor) rütbəsinə qədər yüksəlmişdi.***

***Fəzlullah Zahidi 1949-cu ildə İranın polis rəisi təyin olundu.1951-ci ildə Müsəddiq tərəfindən Azərbaycan türkü olduğu üçün İranın daxili işlər naziri vəzifəsinə irəli çəkildi. 1953-cü ildə baş nazir Məhəmməd Müsəddiqə qarşı qiyamda iştirak etdi.Məhəmməd Müsəddiq devrildi.Müsəddiqdən sonra 19 avqust 1953-30 aprel 1955 İranın baş naziri oldu.Zahidi min illərlə əvvəl məhv olmuş xalqı persləri yenidən yaradan ünsürlərdən idi.Ölkə əhalisinin üçdə-ikisi türk olan məmləkətdə tacik əsilli xalqlar və türklərdən çıxmış vətən xainlərindən pers milləti yaradıldı.***

(ardı var)

